## Milli Məclisin iclasında

# Milli Məclis 2022-ci ili uğurla başa çatdırdı

## Parlamentin bu il 37 plenar iclası keçirilib, 320 qanun və qərar layihəsinə baxılıb





**Dekabrın 30-da parlamentin spikeri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2022-ci ilin payız sessiyasında son iclası keçirilib.**

İclasda əvvəlcə cari məsələlərin müzakirəsi zamanı Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərov dekabrın 24-də ölkə Prezidenti İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü barədə fikirlərini açıqlayıb. O, dövlət başçısının 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzurda tarixi ədaləti bərpa edən Azərbaycanın bu ədaləti Qarabağ münaqişəsinin təsir zonasına daxil olan Qərbi Azərbaycan ərazisində də bərpa etmək əzmini açıq şəkildə bəyan etdiyini bildirib. Deputat Qərbi Azərbaycan İcmasına verdiyi dəstəyə və tarixi torpaqlarımız uğrunda mübarizədə yaratdığı hərtərəfli şəraitə görə Prezident İlham Əliyevə təşəkkürünü ifadə edib. O, Milli Məclisin Sədri Sahibə Qafarovaya bu ümummilli məsələyə göstərdiyi diqqətə görə, habelə millət vəkillərinə və media nümayəndələrinə bu mövzuya münasibət bildirdiklərinə görə təşəkkür edib.

Müzakirələr zamanı çıxış edən deputatlar Nizami Səfərov, Soltan Məmmədov, Ceyhun Məmmədov, Fazil Mustafa, Aydın Mirzəzadə, Naqif Həmzəyev, Sahib Alıyev, Elşad Mirbəşir oğlu, Səbinə Xasayeva, Aqiyə Naxçıvanlı, Fəzail Ağamalı ölkə rəhbərliyini və xalqımızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni təqvim ili münasibəti ilə təbrik ediblər, bir sıra aktual məsələlərə toxunublar.

Millət vəkilləri bəzi fransız siyasətçilərin Prezident Makrona açıq məktub ünvanlayaraq, Ermənistanın dırnaqarası təhlükəsizliyinin təmin edilməsi üçün Azərbaycana qarşı tədbirlər görülməsi ilə bağlı etdikləri qərəzli təkliflərə münasibət bildiriblər. Qeyd edilib ki, Fransa parlamentində təmsil olunan siyasi qüvvələrin əsassız ittihamlarında beynəlxalq hüququn prinsiplərinə zidd olan fikirlər yer alıb. Fransa hökumətinin və parlamentinin mövqeyinin qəbuledilməz olduğunu deyən deputatlar bununla Fransanın Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə töhfə vermək niyyətində olmadığını, regionda gərginlik yaratmağa, sülhün təmin olunması istiqamətində atılan addımlara mane olmağa çalışdığını söyləyiblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasda 18 məsələ müzakirə olunacaq. Gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Hesablama Palatasının auditorunun təyin edilməsi haqqında qərar layihəsidir. O bildirib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 44-cü maddəsinin 4-cü hissəsinə və "Hesablama Palatası haqqında" qanunun 11.3-cü maddəsinə uyğun olaraq, bu vəzifəyə təyinat Milli Məclis Sədrinin təqdimatı əsasında Milli Məclis tərəfindən həyata keçirilir.

Bununla bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. O, Milli Məclis Sədrinin təqdimatı əsasında Vüqar Emin oğlu İbrahimovun Hesablama Palatasının auditoru vəzifəsinə namizədliyinin komitədə geniş müzakirə olunduğunu bildirib.

Tahir Mirkişili Vüqar İbrahimovun bu sahədə böyük təcrübəsini nəzərə alaraq, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin Milli Məclis Sədrinin təqdimatını müsbət dəyərləndirdiyini söyləyib.

Komitə sədri Siyavuş Novruzov çıxış edərək məsələ barədə fikirlərini bildirib, Hesablama Palatasının fəaliyyətini təqdir edib.

Sonra Azərbaycan Respublikası Hesablama Palatasının auditorunun təyin edilməsi haqqında qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin spikeri Sahibə Qafarova bildirib ki, gündəliyin ikinci məsələsi "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə (II səsvermə) Konstitusiya qanununun layihəsidir. O qeyd edib ki, Konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur. Biz bu qanun layihəsinə 6 ay öncə birinci səsvermədə münasibət bildirmişik, indi isə ikinci səsvermədə qəbul etməliyik.

Məsələ barədə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O bildirib ki, prosedura uyğun olaraq, Konstitusiya qanununun ikinci səsverməsi keçirilməlidir. O, bu mərhələdə heç bir müzakirənin nəzərdə tutulmadığını qeyd edərək məsələnin səsə qoyulmasını xahiş edib.

Komitə sədri Zahid Oruc fikirlərini diqqətə çatdırdıqdan sonra "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi ikinci səsvermədə qəbul edilib.

Sonra Milli Məclisin Sədri bildirib ki, növbəti 15 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. Gündəliyin üçüncü məsələsi "Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsidir.

Birinci vitse-spiker, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələ ilə bağlı məlumatında bu qanun layihəsinə ikinci oxunuş zamanı bir əlavənin edildiyini bildirib. Qeyd edib ki, 73-cü maddədə edilən əlavəyə görə, bir oxunuşda qəbul ediləcək sənədlərin siyahısı genişləndirilib.

Deputat Sabir Rüstəmxanlı bəzi fikirlərini səsləndirdikdən sonra Konstitusiya qanununun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Diplomatik xidmət haqqında" qanunlarda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O, məsələ barədə birinci və ikinci oxunuşlarda ətraflı məlumat verildiyini, deputatların hər iki oxunuşda sənədi dəstəklədiklərini, layihənin mətnində heç bir dəyişiklik və əlavənin edilmədiyini bildirib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələ barədə bu komitənin müsbət rəy verdiyini söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili diqqətə çatdırıb ki, layihəyə daxil olan Vergi Məcəlləsinin mətninə ikinci oxunuşdan sonra dəyişiklik edilib. Dəyişikliyə görə, "Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda işləyən diplomatik xidmət əməkdaşlarına, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci və 23.2-ci maddələrinə uyğun olaraq ödənilən müavinətlər, kompensasiyalar və aylıq əlavə" sözləri əlavə olunur. Vergidən azad olunan kompensasiyalar, müavinətlər və əlavə ödəmələr bu qanunun 21-ci və 23.2-ci maddəsində göstərildiyinə görə, bu cümlənin əlavə olunması qanunun icra mexanizmlərinə aydınlıq gətirəcək.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 5 məsələsi ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındırlar. Layihələr keçən dəfə olduğu kimi, bu dəfə də ayrılıqda nəzərdən keçiriləcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O, layihə barədə birinci və ikinci oxunuşlarda ətraflı məlumat verildiyini deyərək, FATF-nin (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) yeni standartları və MONEYVAL-ın (Avropa Şurasının Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi) 5-ci qiymətləndirmə raundunun bu sahədə yeni yanaşmanı şərtləndirdiyini bildirib.

Deputat ikinci oxunuşdan sonra həmkarı Tahir Kərimli tərəfindən maddələr üzrə təkliflər olunduğunu, bununla əlaqədar olaraq komitədə Maliyyə Monitorinq Xidmətinin rəisi Zaur Fətizadənin və qurumun departament rəhbəri Azər Abbasovun iştirakı ilə işçi qaydada görüşün keçirildiyini deyib. O bildirib ki, görüşdə bütün təkliflər müzakirə olunub, bir sıra təkliflər razılaşdırılaraq qanunvericilik təşəbbüsü subyektinə təqdim edilib. Qanunvericilik təşəbbüsü subyekti təkliflərin ikisini qəbul edib. Nəticədə qanunun 19.4-cü maddəsində cümlənin sonunda "nəzərdə tutulmuş məlumatlarından" sözündən sonra "və sənədləri" sözləri əlavə edilib. Eyni zamanda 19.5-ci maddədə cümlənin sonunda "bu Qanunun 19.2-ci maddəsində nəzərdə tutulmuş məlumatları" sözlərindən sonra "və sənədləri" sözləri əlavə edilir.

Sonra Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bu komitənin sənədlə bağlı rəyini səsləndirib.

Deputat Razi Nurullayev məsələ barədə fikirlərini söylədikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Nizami Səfərov "Hədəfli maliyyə sanksiyaları haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O bildirib ki, qanun layihəsi iki oxunuşda qəbul edilib, hər hansı təklif irəli sürülməyib və mətndə heç bir dəyişiklik edilməyib. Qanun layihəsi FATF-nin (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) tövsiyələri əsasında hazırlanıb.

Deputat Kamal Cəfərov Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu komitənin sənəd barədə rəylərini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsi barədə məlumat verib. Bildirib ki, bu layihə əvvəlki iki məsələ ilə əlaqədar hazırlanıb və uyğunlaşdırma xarakterli dəyişiklikləri özündə ehtiva edir.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Nizami Səfərov məsələ barədə bu komitənin müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra deputat Kamal Cəfərov Mülki Prosessual Məcəllədə və Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. O bildirib ki, bu məsələ gündəliyin 5, 6 və 7-ci məsələlərində ehtiva olunan yeni münasibətlərin prosessual əsaslarını müəyyən edir.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Kamal Cəfərov Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini də təqdim edib. O, dəyişikliklərin uyğunlaşdırma xarakteri daşıdığını və sənədə dair hər hansı təklifin daxil olmadığını deyib.

Deputat Nizami Səfərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili isə rəhbərlik etdiyi komitənin məsələ ilə bağlı müsbət rəylərini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra parlamentin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Daxili işlər orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, məsələ ilə bağlı ikinci oxunuşda digər təkliflərin daxil olmadığını bildirib və onun üçüncü oxunuşda səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra parlamentin sədri növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu söyləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, sənədin dövlət qulluğunun inkişafı istiqamətində qanunvericilik bazasının təkmilləşdirilməsində əhəmiyyətli rol oynadığını deyib. Diqqətə çatdırıb ki, layihə iki oxunuşda qəbul edilib və təqdim olunan mətndə heç bir dəyişiklik olunmayıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra deputat Nizami Səfərov "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Bildirib ki, layihədə dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həllinə məsul olan etik müvəkkil vəzifəsinin təsis edilməsi məsələləri öz əksini tapıb.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib.

O bildirib ki, layihə "Qida təhlükəsizliyi haqqında" qanunun icrası ilə əlaqədar hazırlanıb. Bununla bağlı adları çəkilən qanunlarda qida və ərzaq məhsullarının dövriyyəsinə dair lazım olan sənədlər və tələb olunan rüsumların təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulub. Qanun layihəsi bu sahədə olan keyfiyyət göstəricilərinin artırılmasına, sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə yönəlib.

Komitə sədri qeyd edib ki, ikinci oxunuşdan sonra komitənin təklifi ilə qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılmaqla qanunların sırasında olan "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 31-ci maddəsində dəyişiklik edilib. Dəyişikliyin mahiyyəti ondan ibarətdir ki, əvvəlki variantdan fərqli olaraq, 31.2-ci maddədə ərzaq balansının tərtibi üçün fermerlər və tədarükçülər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalına dair məlumatlar ayda deyil, ildə bir dəfə veriləcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Aqrar siyasət komitəsinin üzvü Azər Badamov bu komitələrin sənəd barədə rəylərini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, qanun layihəsinə ikinci oxunuşda plenar iclasda və üçüncü oxunuşda komitədə heç bir əlavə və dəyişikliyin edilmədiyini, komitənin sənədə dair müsbət rəy verdiyini bildirib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O bildirib ki, qanuna təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Komitə sədri sənəd barədə iki oxunuşda ətraflı məlumat verildiyini deyərək, layihəni dəstəkləməyi xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən danışıb. O bildirib ki, sənədə dair əlavə və dəyişiklik təklif edilməyib, komitənin layihə ilə bağlı rəyi müsbətdir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O deyib ki, təklif olunan dəyişikliklər pensiyaçıların sosial rifahını qorumaq məqsədi daşıyır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, ənənəyə uyğun olaraq, hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Milli Məclis dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımıza və həmvətənlərimizə müraciət qəbul edir və gündəliyin sonuncu məsələsi məhz Milli Məclisin Müraciəti ilə bağlıdır. Spiker müraciətin mətninin hazırlandığını bildirib və onu təqdim etmək üçün deputat Anar Məmmədova söz verib.

İclasda deputat Anar Məmmədov Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Milli Məclisin Müraciətini oxuyub.

Parlamentin komitə sədri Qənirə Paşayeva, deputatlardan Razi Nurullayev, Musa Qasımlı, Fatma Yıldırım məsələ ilə bağlı fikirlərini açıqlayıb, qeyd və təkliflərini bildiriblər.

Müzakirələrin sonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti səsə qoyularaq qəbul edilib.

Milli Məclisin payız sessiyasının son iclasına yekun vuran spiker Sahibə Qafarova bildirib ki, bu gün payız sessiyasının son iclasıdır. Bu gün biz həm sessiyaya, həm də 2022-ci ilə yekun vururuq.

*Ardı 4-cü səh.*

## Milli Məclisin iclasında

# Milli Məclis 2022-ci ili uğurla başa çatdırdı

## Parlamentin bu il 37 plenar iclası keçirilib, 320 qanun və qərar layihəsinə baxılıb

Əvvəli 3-cü səh.

Payız sessiyası və il ərzində görülmüş işlər haqqında məlumat verən spiker diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin altıncı çağırış Milli Məclisin birinci iclasında verdiyi tövsiyələrə uyğun olaraq parlamentin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər bu dövrdə də ardıcıl davam etdirilib.

Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Payız sessiyasında parlamentin 19 iclası keçirilib, 206 qanun və qərar qəbul edilib. Ümumiyyətlə, 2022-ci ildə 37 plenar iclas olub, 320 qanun və qərar layihəsinə baxılıb. Bir çox qanunlara və məcəllələrə mühüm dəyişikliklər qəbul edilib. Qanunvericilik aktlarının böyük əksəriyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların hüquqi mexanizmini möhkəmləndirməyə yönəlib.

Sahibə Qafarova qeyd edib ki, qanunvericilik və qanunyaratma fəaliyyətinin səmərəsini artırmaq üçün ictimai dinləmə formatından geniş istifadə edilib. Bu il ərzində 10 dinləmə keçirilib, böyük ictimai maraq doğuran qanun layihələri və digər məsələlər hərtərəfli müzakirə edilib.

Xocalı soyqırımının 30 illiyi, Vətən müharibəsinin başlanmasının ildönümü, 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Milli Məclisin bəyanatları qəbul olunub. Digər bir bəyanatla Milli Məclis Fransada fəaliyyət göstərən erməni lobbisinin və ermənipərəst siyasi dairələrin təhriki ilə Fransa parlamentinin hər iki palatasının qəbul etdiyi qətnamələrə etirazını bildirib. Bu sənədlər Ermənistan Respublikasının Azərbaycana qarşı həyata keçirdiyi etnik nifrət, düşmənçilik və qəsbkarlıq siyasətinə, ərazi iddialarına haqq qazandırmaq niyyəti güdən qərəzli aktlar kimi qiymətləndirilib. Həm bu, həm də bir sıra digər məsələlər ilə əlaqədar xarici ölkələrin parlamentlərinə və beynəlxalq parlament təşkilatlarına Milli Məclisdən çoxsaylı məktublar göndərilib.

Parlamentin sədri bildirib ki, Milli Məclis nəzarət funksiyasını səmərəli surətdə həyata keçirib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları dinlənilib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Milli Məclisin deputatları seçki dairələrində fəal iş aparıblar. Millət vəkilləri öz seçiciləri ilə müntəzəm görüşlər keçirmiş, onları düşündürən məsələləri Milli Məclisin iclaslarında, eləcə də digər hakimiyyət orqanları qarşısında qaldırıblar. Xüsusən şəhid ailələrinin və qazilərin problemlərinə diqqət göstərilib. 1 nəfər şəhid anası və 4 nəfər qazi Milli Məclisin Aparatında və İşlər İdarəsində işlə təmin olunub.

Spiker onu da deyib ki, bu il Milli Məclisdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində də lazımi tədbirlər həyata keçirilib. Milli Məclisin rəhbərliyi, komitə sədrləri və Aparatın şöbə müdirləri tərəfindən 2700-ə qədər vətəndaş qəbul edilib, parlamentdə 20 minə yaxın vətəndaş müraciətinə baxılıb.

Parlamentin sədri diqqətə çatdırıb ki, başa çatmaqda olan il Milli Məclisin beynəlxalq əlaqələrinin intensivliyi baxımından da məhsuldar bir dövr olub. Nümayəndə heyətlərimiz üzv olduğumuz beynəlxalq parlament təşkilatlarının fəaliyyətində iştirak ediblər. İl ərzində deputatlarımız 59 ölkəyə 116 səfər həyata keçiriblər. Başqa sözlə deyilsə, 85 deputat 292 dəfə xarici ölkələrə ezam olunub.

Milli Məclisin Sədrinin 14 ölkəyə rəsmi və işgüzar səfərləri olub. Bütün xarici səfərlərdə Milli Məclisin deputatları parlamentlərarası əlaqələrin inkişafı məsələlərini, müasir dövrdə dövlətlərin qarşılaşdığı problemlərin həllində parlament diplomatiyasının imkanlarını müzakirə ediblər.

Bütün görüşlərdə deputatlar 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqaz bölgəsində mövcud olan vəziyyət və Ermənistanla Azərbaycan arasında sülh perspektivləri barədə məlumat veriblər. Qeyd edilib ki, Qarabağ münaqişəsi artıq tarixə çevrilib. Hazırda Azərbaycan işğal dövründə Ermənistan tərəfindən dağıdılmış şəhər və kəndlərdə bərpa-quruculuq işləri həyata keçirir. Bütün görüşlərdə deputatlar sülh prosesini və quruculuq işlərini ləngidən ən mühüm problemlərə - Ermənistanın təxribatlarının davam etməsinə və ərazilərə çoxlu sayda minalar basdırılmasına da diqqət çəkiblər. Bu məlumat da çatdırılıb ki, Azərbaycan dünyanın ən çox minalanmış ölkələrindən biri olsa da, minatəmizləmə fəaliyyətində hələ də ən az beynəlxalq dəstək alan ölkələrdən biridir.




Spiker qeyd edib ki, Milli Məclisin Sədrinin səfərləri gedişində Özbəkistanın qanunvericilik orqanı ilə əməkdaşlıq haqqında saziş və "Yol xəritəsi", Türkmənistan parlamenti ilə əməkdaşlığa dair Anlaşma Memorandumu, Kamboca parlamenti ilə Anlaşma Memorandumu da imzalanıb. Bundan əlavə, Azərbaycan Milli Məclisi ASEAN Parlamentlərarası Assambleyasında müşahidəçi statusu alıb.

Bu il 42 xarici dövlətin və 14 beynəlxalq təşkilatın 100-ə qədər nümayəndə heyəti və təmsilçisi Milli Məclisdə olub. Beynəlxalq təşkilatların xətti ilə 4 böyük tədbirə evsahibliyi edilib.

Bu tədbirlər sırasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin iyun ayında Bakıda Heydər Əliyev Mərkəzində keçirilən birinci konfransı xüsusi yer tutur. Əminliklə söyləmək olar ki, dünyada BMT-dən sonra ikinci ən böyük təşkilatın parlament ölçüsünün məhz bizim ölkəmizin səyləri ilə təsis edilməsi və fəaliyyətə başlaması Azərbaycan dövlətinin xarici siyasətinin növbəti böyük nailiyyəti hesab edilməlidir.

Azərbaycanın dövlət başçısının konfransda etdiyi əhatəli və dərin məzmunlu çıxış yeni dialoq və əməkdaşlıq platformasının fəaliyyət istiqamətlərinin müəyyən edilməsi baxımından çox əhəmiyyətli olub.

Bakı konfransında xarici ölkələrin və beynəlxalq təşkilatların 50-yə yaxın nümayəndə heyətinin, başqa sözlə, 400-ə qədər nümayəndənin, o cümlədən 15 parlament sədrinin, 17 sədr müavininin iştirak etməsi bu mötəbər tədbirə göstərilən böyük maraq və diqqətin təzahürü idi.

Spiker qeyd edib ki, Azərbaycanın parlament diplomatiyasının uğurlarını artırmaq üçün Milli Məclisdə keçirilmiş digər beynəlxalq tədbirlərin imkanlarından da lazımınca istifadə edilib. Bu baxımdan may ayında Milli Məclisdə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransı xüsusi önəm daşıyır.

Konfransda Parlament Assambleyasına sədrlik Pakistan Milli Assambleyasından Azərbaycan Milli Məclisinə təhvil verilib. Konfransın yekununda qəbul olunmuş Bakı Bəyannaməsində bölgədə iqtisadi və sosial inkişafın təmin edilməsində, inteqrasiya və əməkdaşlıq proseslərinin inkişafında parlamentlərin rolu qeyd edilib. Sənəddə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbənin regionda davamlı sülh və iqtisadi tərəqqiyə yol açacağına inam ifadə olunub.

Bu tədbirlərdən əlavə, VII Beynəlxalq Sosial Elmlər Konqresini və Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin VII üçtərəfli birgə iclası kimi beynəlxalq tədbirləri də qeyd etmək olar.

Sahibə Qafarova bildirib ki, parlamentin beynəlxalq əlaqələrinin inkişafına yönələn tədbirlərdən biri də 18 ölkənin qanunvericilik orqanları ilə əlaqələr üzrə yeni işçi qruplarının yaradılması olub. Təcrübə göstərir ki, parlament üzvlərinin şəxsi təmasları parlamentlərarası əlaqələri gücləndirməyin mühüm bir amilidir. Spiker yeni yaradılan qrupların bu istiqamətdə fəaliyyətinin səmərəli olacağına inamını ifadə edib.

Milli Məclisin Şuşa gündəliyi haqqında fikirlərini də bölüşən spiker qeyd edib ki, bildiyiniz kimi, bu ilin aprel ayından başlayaraq Milli Məclisin bir sıra komitə iclasları Şuşa şəhərində təşkil edilib. Artıq bütün komitələrimiz Azərbaycanın mədəniyyət paytaxtında iclaslarını keçiriblər. O, komitə iclaslarının Şuşa şəhərində baş tutmasını müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş şanlı Zəfərin yaratdığı yeni reallığın təzahürlərindən biri kimi dəyərləndirib, eyni zamanda bunun möhtərəm cənab Prezidentin sərəncamı ilə elan edilmiş "Şuşa ili"nə töhfə vermək niyyəti ilə bağlı olduğunu deyib. Spiker onu da diqqətə çatdırıb ki, bütün bunlarla yanaşı, Milli Məclisin evsahibliyi ilə keçirilən bütün beynəlxalq tədbirlərin iştirakçısı olan parlament təmsilçilərinin Şuşa şəhərinə ziyarətləri təşkil edilib.

Bu ziyarətlərin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından əhəmiyyətindən danışan Sahibə Qafarova vurğulayıb ki, qonaqların Füzuli Beynəlxalq Hava Limanına enməsi, qəhrəman Azərbaycan əsgərinin açdığı Zəfər yolunu keçərək Şuşa şəhərinə getməsi, mədəni, dini və tarixi abidələri seyr etməsi, eləcə də şəhərdə aparılan bərpa və quruculuq işləri ilə tanış olması onların ölkəmiz və xalqımız barədə təsəvvürlərini daha da zənginləşdirib.

Milli Məclisin payız sessiyasını və 2022-ci ili uğurla başa çatdırdığını deyən spiker bununla əlaqədar deputatlara səmərəli iş üçün təşəkkür edib.

Sonra Milli Məclisin Sədri bildirib ki, qarşıdan bayramlarımız gəlir. Sabah xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü, daha sonra isə Yeni ili qeyd edəcəkdir. Spiker bu bayramlar münasibəti ilə təbriklərini çatdırıb.

Sahibə Qafarova təklif edib ki, möhtərəm Prezidentimiz İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq və Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. Spikerin təklifi alqışlarla qarşılanıb.

Çıxışının sonunda parlamentin sədri Milli Məclisin 2022-ci il payız sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Milli Məclisin 2022-ci il payız sessiyasının sonuncu plenar iclası başa çatıb.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*